# AZƏRBAYCANDA YERLİ SEÇKİ MÜŞAHİDƏÇİLİK İNSTİTUTU SIRADAN ÇIXARILIB

Sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirildi. Bu seçkinin əvvəlki seçkilərlə oxşarlığı çoxdur. Bu seçki də qeyri-demokratik mühitdə və insan haqlarının pozulması fonunda keçirildi. Amma bu seçkini əvvəlki seçkilərlə mənfi mənada fərqləndirən xüsusi bir cəhəti var. Son 20 ildə ilk dəfədir ki, Azərbaycanda yerli seçki müşahidəçilik institutları tamamilə seçkidən kənar saxlanılır.

Azərbaycanda yerli seçki müşahidəçiliyi ilə məşğul olan müstəqil və beynəlxalq qurumların qəbul etdiyi iki əsas təşkilat var. Onlardan biri hazırda həbsdə olan siyasi məhbus Anar Məmmədlinin rəhbərlik etdiyi Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT), digəri isə hazırda həbsdə olan, siyasi məhbus Akif Qurbanovun rəhbərlik etdiyi Demokratik Təşəbbüslər İnstitutudur (DTİ).

SMDT-nin rəhbəri Anar Məmmədli aprelin 29-da saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb. Məhkəmənin qərarına görə, Anar Məmmədli barəsində 3 ay 28 gün müddətinə həbs qətimkan tədbiri seçilib. Avqustun 23-də isə onun barəsində seçilən həbs-qətimkan tədbiri daha 3 ay uzadılıb. Anar Məmmədli ona qarşı irəli sürülün ittihamları qəbul etmir, həbsini siyasi motivli sayır. Qeyd edək ki, 2024-cü il növbədənkənar prezident seçkiləri ərəfisində hakimiyyətin nəzarəti altında olan mediada Anar Məmmədliyə qarşı qarayaxma kampaniyası aparılıb.

Bir sıra beynəlxalq təşkilatlar, həmçinin ABŞ Dövlət Departamenti, ABŞ Səfirliyi Azərbaycan hökumətini Anar Məmmədli və digər həbs edilən şəxsləri dərhal azad etməyə çağırıb.

Anar Məmmədli bu il fevralın 20-də ölkədə vətəndaş azadlıqlarının, ictimai iştirakçılığın təmin olunması və ətraf mühitdə ədalətin bərqərar olunması təşəbbüsü ilə təsis edilən COP29 - Ədalət Mühiti Təşəbbüsünün (COP29 - Cimate of Justice Initiative) təsisçilərindəndir.

Məmmədli bundan öncə 2013-cü il dekabrın 17-də həbs olunub. O, vergidən yayınma və vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, seçki və referendumun nəticələrini saxtalaşdırmaqda ittiham olunub. Bakı Ağır Cinayətlər Məhkəməsi Anar Məmmədlini 5 il 6 ay müddətinə azadlıqdan məhrum edib. Məmmədli itihamı qəbul etməyib və Amnesty International təşkilatı tərəfindən vicdan məhbusu elan edilib. O, 2016-cı il martın 17-də Azərbaycan Prezidenti İlham Əliyevin əfv sərəncamı ilə azadlığa buraxılıb.

Anar Məmmədli 2014- cü il sentyabrın 29-da Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) payız sessiyasında Vatslav Havel mükafatına layiq görülüb.

SMDT Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi, vətəndaş cəmiyyəti və demokratiyanın inkişafı sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatıdır. SMDT qeydiyyatı ləğv edilmiş Seçki Monitorinq Mərkəzinin (SMM) təsisçiləri və üzvləri tərəfindən yenidən təsis edilib.

Qeyd edək ki, 24 iyul 2001-ci ildə təsis olunmuş SMM-nin qeydiyyatı 14 may 2008-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin qanunsuz iddiası əsasında Xətai rayon məhkəməsi tərəfindən ləğv edib.

SMDT üzv olduğu Seçkilərin Monitorinqi Təşkilatlarının Avropa Şəbəkəsi (ENEMO), Demokratik Seçkilər üzrə Avropa Platforması (EPDE) və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Müşahidə Missiyaları tərkibində Albaniya, Belarus, Türkiyə, Ukrayna, Gürcüstan, Qırğızıstan və Qazaxıstanda keçirilən prezident, parlament seçkiləri və referendumu müşahidə edib.

Martın 6-da hüquq-mühafizə orqanları Akif Qurbanovun rəhbəri olduğu Demokratik Təşəbbüslər İnstitutunun, həmçinin bir neçə əməkdaşın evində axtarış aparıb. DTİ-nin rəhbəri, həmçinin "III Respublika Platforması"nın spikeri Akif Qurbanova cinayət işi açılıb və barələrində 4 aylıq həbs qətimkan tədbiri seçilib. İyulun 4-də isə onun barəsində seçilmiş həbs-qətimkan tədbiri 3 ay uzadılıb.

Demokratik Təşəbbüslər İnstitutu (IDI) 5 noyabr 2013-cü ildə bir qrup hüquqşünas və ictimai xadim tərəfindən yaradılıb. Təşkilatın sədri keçmiş MSK üzvü Akif Qurbanov seçilib.

DTİ seçki müşahidəçiliyi ilə yanaşı hüquq müdafiəçilərinin, jurnalistlərin və gənc liderlərin yetişdirilməsi istiqamətində layihələr həyata keçirib.

Hazırda hər iki təşkilat fəaliyyət göstərə bilmir, ofisləri qapadılıb. Buna səbəb isə hər iki təşkilatın rəhbərinə qarşı cinayət işlərinin açılması, onların həbs edilməsi və onlarla əməkdaşlıq edən şəxslərin istintaqa cəlb edilməsidir.

Anar Məmmədli ilk dəfə - 2013-cü il prezident seçkilərindən sonra həbs ediləndən sonra 2014-cü ildə keçirilən bələdiyyə, 2015-ci ildə keçirilən parlament seçkilərində o vaxt yeni yaranan DTİ seçki müşahidəçiliyini həyata keçirmişdi.

Lakin indi yuxarıda qeyd edilən səbəblərdən hər iki təşkilat 1 sentyabrda keçiriləcək parlament seçkilərini müşahidə edə bilmədi. Bu o deməkdir ki, yerli seçki müşahidə institutu hakimiyyət tərəfindən tamamilə məhdudlaşdırılıb və 1 sentyabr seçkiləri yerli seçki müşahidəçilərinin olmadığı şəraitdə baş tutacaq.

Bütün bu hallar seçkinin azad və ədalətli, demokratik keçirilmədiyini göstərən ən əsas faktorlardan biri idi. Bu həm də Azərbaycan hakimiyyətinin yerli müşahidəçilik institutunun tamamilə sıradan çıxarmaq istəməsi niyyətinin olmasını göstərir.

## AZƏRBAYCANDA HÜQUQİ SİYASİ MƏHBUSLAR AÇLIQ AKSİYALARI KEÇİRİRLƏR

Avqust ayı Azərbaycanda üç nəfər siyasi məhbusun acılıq aksiyası keçirməsi ilə yadda qalıb. Siyasi məhbus hesab edilən İstanbul Universitetinin doktorantı Fazil Qasımov, I qrup əlil Famil Xəlilov, keçmiş diplomat Emin İbrahimov aclıq aksiyası keçiriblər. Onlar qanunsuz həbslərinə etiraz olaraq aclıq aksiyalarına başlayıblar.

***F.Qasımov iyun ayından həbsinə etiraz olaraq həbsdə acılıq aksiyasına başlayıb.***

Türkiyədə yaşayan F.Qasımov 2023-cü il avqustun 8-də İstanbulda tutularaq Azərbaycana gətirilib. F.Qasımov Qubad İbadoğluna qarşı qaldırılmış cinayət işinin istintaqı çərçivəsində saxlanılıb və Cinayət Məcəlləsinin 204.3.1-ci (satış məqsədi ilə hazırlama, o cümlədən saxta pul və ya xarici valyuta əldə etmə və ya satma - eyni əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunur. O, Q.İbadoğlu ilə ünsiyyətinin 2020-ci ilin mart

ayında virtual formada yarandığını bildirib. “Təhsil Fondu (AYEF) Böyük Britaniyanın Xeyriyyə Komissiyası tərəfindən qeydiyyata alındıqdan 23 gün sonra Qubad İbadoğlu, 39 gün sonra mən həbs edildim”, o əlavə edib.

Azərbaycan Cinayət Məcəlləsinin 204.3.1-ci (satış məqsədi ilə hazırlama, o cümlədən saxta pul və ya xarici valyuta əldə etmə və ya satma - eyni əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə), 167-3.1-ci (Dini ekstremist materialları, yəni dini ekstremist fəaliyyəti həyata keçirməyə çağıran və ya belə fəaliyyəti əsaslandıran, yaxud belə fəaliyyətin zəruriliyinə bəraət qazandıran materialları hazırlama, saxlama və ya yayma) maddələri ilə ittiham olunan Qubad İbadoğlu ötən ilin iyulunda həbs edilib və bu il aprelin 22-ə qədər həbsdə qalıb.

Çoxsaylı yerli və beynəlxalq çağırışlardan sonra aprelin 22-ə İbadoğlunun həbsi ev dustaqlığı tədbiri ilə əvəz edilib. Mayın 21-də isə ev dustaqlığı müstəntiqin qərarı ilə polisin nəzarətinə verilmə ilə əvəz olunub və iş üzrə istintaqın müddəti daha 3 ay uzadılıb.

Hazırda F.Qasımovun cinayət işi Q.İbadoğlunun cinayət işindən ayrı icraata götürülüb. Avqustun 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə Qasımovun cinayət işi üzrə hazırlıq iclası başlayıb.

***Fiziki məhdudiyyətli şəxs (1-ci qurup əlil cinayət məsuliyytinə cəlb oluna bilməz)***

1 saylı Bakı İstintaq Təcridxanasının tibb-sanitar hissəsində saxlanılan ictimai fəal, I qrup əlil Famil Xəlilov avqustun 15-dən aclığa başladığını elan edib. Fəal qanunsuz həbsinə və fiziki imkanları məhdud olduğu üçün əziyyət çəkdiyinə görə etiraz etdiyini bildirib. F.Xəlilov iflic olduğundan hərəkət məhdudiyyəti var və ona baxan sosial işçi təyin edilməyib, bundan əvvəl ona dustaqlar qayğı göstərirmiş.

Mayın 2-də saxlanılan Xəlilova qarşı Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə küllü miqdarda narkotik hazırlama, daşıma, saxlama) maddəsi ilə ittiham irəli sürülüb. Fəal barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Bu maddədə 5 ildən 12 ilədək həbs cəzası nəzərdə tutulur.

Yaxınları onun təqsirsiz olduğunu, sosial şəbəkələrdəki paylaşımlarına görə cəzalandırıldığını deyirlər.

F. Xəlilov mayın 6-da vəziyyətinin pisləşməsilə əlaqədar 1 saylı Bakı İstintaq Təcridxanasının tibb-sanitariya hissəsinə yerləşdirilib.

Qasımov və Xəlilov hazırda aksiyalarını davam etdirirlər.

***Anti-Rusiya çıxışları ilə yadda qalan keçmiş diplomat “adam bıçaqlayır”***

İyulun 22-də hüquq-mühafizə orqanları tərəfindən saxlanılan və barəsində məhkəmə qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilən keçmiş diplomat Emin İbrahimov da 20 gün aclıq aksiyası edəndən sonra avqustun 12-də yaxınlarının təkidli xahişindən sonra aclığı dayandırıb.

Adam bıçaqlamada ittiham olunan Emin İbrahimova qarşı Cinayət Məcəlləsinin 126.2.4 (xuliqanlıq niyyəti ilə sağlamlığa qəsdən ağız zərər vurmaq) və 221.-ci (xuliqanlıq) maddələrilə

cinayət işi açılıb. Emin İbrahimov ona qarşı irəli sürülən ittihamları rədd edib. Saxlanılan zaman onun pis rəftara və işgəncəyə məruz qaldığı bildirilir.

Emin İbrahimov 2007- 2020-ci illərdə diplomatik xidmətdə olub. 2012-2016-cı illərdə Azərbaycanın ABŞ-dakı səfirliyinin ikinci katibi, 2016-2020-ci illərdə Uruqvayda müvəqqəti işlər vəkili olub.

2020-ci ildə Azərbaycanda keçirilən parlament seçkilərinin saxtalaşdırılmasına etiraz olaraq diplomatik xidmətdən istefa verib. Bundan sonra analitik işlərlə məşğul olub, KİV və sosial şəbəkələrdə şərhlərlə çıxış edib.

O, Qərblə münasibətlərin pisləşməsinə, Rusiya və digər avtoritar dövlətlərlə yaxınlaşmasına görə hakimiyyəti kəskin tənqid edib. 2023-cü ilin sentyabrında Emin ***İbrahimov "Rusiyanın əlinə oynayan siyasət"*** adlı məqalənin dərcinə görə inzibati qaydada 30 sutka həbs edilib.

Eyni vaxtda bir-biri ilə əlaqəsi olmayan, fərqli işlərə görə həbs edilən siyasi məhbusların aclıq aksiyası etməsinə son illər rast gəlinməyib.

Azərbaycanda siyasi məhbusların əvvəllər də aclıq aksiyaları etmələri olub. Bu, daha çox eyni iş üzrə həbs edilən şəxslərin etiraz qanunsuz həbslərinə etiraz olaraq etdikləri aksiya olub. Amma ***F. Qasımov, E. İbrahimov və F. Xəlilov*** ayrı-ayrı ittihamlar üzrə həbs ediliblər və onların bir-birləri ilə əlaqələri yoxdur.

Artıq Azərbaycanda məhkəmə-hüquq sisteminə inam o qədər azalıb ki, məhbuslar, xüsusilə də siyasi məhbuslar üzləşdikləri haqsızlıqlara, qanunsuz həbslərə etirazlarını həyatları üçün təhlükəli olsa da aclıq aksiyası ilə bildirməyi seçirlər.

Hər üç siyasi məhbus azadlığa çıxmaq üçün hüquqi imkanlardan istifadə ediblər. Lakin siyasi sifarişi yerinə yetirən məhkəmə-hüquq sistemi onların azadlığa buraxmayıb.

Siyasi məhbusların aclıq aksiyası əvvəllər də olub. Amma aclıq aksiyası ilə tələblərinə nail olma faktları çox az olub. Əksər hallarda hakimiyyət aclıq aksiyaları edən siyasi məhbusların tələblərini yerinə yetirməməyə üstünlük verib. Hakimiyyət düşünür ki, aclıq aksiyası edən hansısa siyasi məhbusun tələbini yerinə yetirsə, bu, presidentə çevrilər bilər və siyasi məhbusların aclıq aksiyaları kütləviləşər. Ona görə də hakimiyyət çox vaxt siyasi məhbusların aclıq aksiyalarının qarşısını almağa çalışır. Bunu bacarmadıqda isə aclıq edən siyasi məhbuslara aksiyanı dayandırması üçün müxtəlif təzyiqlər edilir.

Aclıq aksiyası edən məhbuslar aksiya etməklə azadlığa çıxmasalar da qanunsuz həbslərinə yerli və beynəlxalq ictimaiyyətin diqqətini cəlb edə bilirlər.

Hakimiyyət üzdə belə aksiyalara reaksiya verməməyə çalışa da, bu cür aksiyalar hakimiyyəti narahat edir.

## GÜRCÜSTAN AZƏRBAYCANLI SİYASİ MÜHACİRLƏR ÜÇÜN TƏHLÜKƏLİ ÖLKƏYƏ ÇEVRİLİB

Gürcüstan Azərbaycandan ora müvəqqəti siyasi mühacir kimi gedən şəxslər üçün təhlükəsiz yer sayılmamaqda qalır. Belə ki, ötən ilin dekabr ayının 24-dən ailə üzvləri ilə Gürcüstanda yaşayan keçmiş siyasi məhbus və "Azel.TV" saytının rəhbəri Əfqan Sadıqov avqustun 3-də Gürcüstan polisi tərəfindən saxlanılıb. O, Gürcüstana müalicə üçün getdiyini və sonra təhdidə məruz qaldığından Azərbaycana qayıtmasının təhlükəli olduğunu bildirib.

Avqustun 4-də Tbilisi Şəhər Məhkəməsi hakim Ketevan Caçvadzenin sədrliyi ilə Əfqan Sadıqov barəsində ekstradisiya məqsədi ilə 3 ay müddətinə həbs qətimkan tədbiri seçib.

Məhkəmədə bildirilib ki, Əfqan Sadıqova qarşı mayın 10-da Azərbaycan Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188.2.2-ci və 182.2.4-cü maddələrində nəzərdə tutulmuş cinayətlər - "hədə-qorxu ilə tələb etmə, başqasının külli miqdarda əmlakını ələ keçirmə, dəfələrlə təhqiredici məlumat yaymaqla hədələmə" üzrə cinayət işi qaldırılıb. Əfqan Sadıqovun həbsi Azərbaycan tərəfinin müraciəti əsasında həyata keçirilib.

Avqustun 15-də Tbilisi Apelyasiya Məhkəməsinin İstintaq İşləri üzrə Kollegiyasının hakimi Giorgi Mirotadze "Gürcüstanın Hüquqları" hüquq müdafiə təşkilatının bu ölkədə ekstradisiya məqsədi ilə barəsində 3 ay həbs qətimkan tədbiri seçilmiş jurnalist Əfqan Sadıqov barəsində həbs qətimkan tədbrinin dəyişdirilməsi və ya girov müqabilində azadlığa buraxılması ilə bağlı şikayətini qəbuledilməz hesab edib. Məhkəmə Tbilisi Şəhər Məhkəməsinin avqustun 4-də çıxardığı hökmü qüvvədə saxlayıb.

Əfqan Sadıqov bundan öncə iki dəfə həbs edilib. O, 2020-ci ilin mayında da hədə yolu ilə pul tələb etmək ittihamı ilə həbs edilib. 3 noyabr 2020-ci ildə məhkəmə onu yeddi il azadlıqdan məhrum edib. Apelyasiya Məhkəməsi cəza müddətini 6 ilədək, Ali Məhkəmə isə 4 ilədək azaldıb. 2 il 15 gün həbsdə saxlanıldıqdan sonra 27 may 2022-ci ildə prezidentin əfv sərəncamı ilə azadlığa buraxılıb. O, həbsxanada olanda uzun müddət acılıq aksiyası da etmişdi.

Əfqan Sadıqov 2016-cı ilin noyabrında Cinayət Məcəlləsinin xuliqanlıq niyyəti ilə təhlükəli üsulla sağlamlığa qəsdən az ağır ziyan vurma maddəsi ilə də həbs edilib. Cəlilabad Rayon Məhkəməsi ona 2 il 6 ay həbs cəzası versə də, sonradan Ali Məhkəmənin qərarı ilə həbs müddəti bir il azaldılıb və 2018-ci ildə həbs müddəti bitdiyi üçün azadlığa buraxılıb.

Yerli hüquq müdafiəçiləri onu siyasi məhbus kimi tanıyıb.

Qeyd edək ki, Əfqan Sadıqovun həbsi Gürcüstanda azərbaycanlı jurnalistin ilk həbsi deyil. Əfqan Sadıqovdan öncə də Gürcüstanda azərbaycanlı jurnalist həbs edilib. Belə ki, 2017-ci ilin mayında Tbilisidə yaşayan jurnalist Əfqan Muxtarlı Gürcüstanın güc strukturları tərəfindən saxlanılıb, zor tətbiq edilərək sərhəddə Azərbaycan tərəfinə təhvil veriblər. Muxtarlı 2018-ci ilin yanvarında sərhədi qanunsuz keçmək, qaçaqmalçılıq və hakimiyyət nümayəndəsinə müqavimət göstərməkdə ittihamları altı il müddətinə azadlıqdan məhrum edilmişdi.

2020-ci il martın 17-də məhkəmə Muxtarlının cəzasını yüngülləşdirib, o azad edilib və Almaniyaya mühacirət edib.

Əfqan Muxtarlının həbsindən sonra Gürcüstana sığınan azərbaycanlı ictimai-siyasi şəxslərin çoxu oranı tərk edərək 3-cü ölkələrə üz tutdular.

Əfqan Muxtarlı hadisəsindən 7 il keçsə də, Əfqan Sadıqovun həbsi onu göstərir ki, Gürcüstan azərbaycanlı ictimai fəallar üçün hələ də təhlükəli yer olaraq qalır və Azərbaycan hakimiyyətinin sifarişi əsasında Gürcüstan hakimiyyəti orada yaşayan azərbaycanlı mühacirləri istənilən vaxt həbs edərək Azərbaycan tərəfinə verə bilər.